# İNGİLİS DİLİ

# ALT VƏ ÜST STRUKTUR İKİMƏNALILIĞI (AMBIGUITY) ARASINDAKI SİNTAKTİK FƏRQ

**VALİDƏ KƏRİMOVA**
Xəzər Universiteti
Humanitar, Təhsil və Sosial elmlər fakültəsi
*vkerimova@khazar.org*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Aparılan tədqiqat işinin aktuallığı məhz ondadır ki, burada N. Xomskinin sintaktik təlimində üst və alt qat problemi, alt və üst qatda ikimənalılıq (ambiguity) və nəhayət bu məsələlərin həllinə təşəbbüs göstərilərək, onların həlli üçün müxstəlif yanaşmalar istifadə olunur. Qeyd edilən nəzəri fikirləri təsdiqləmək üçün müəllif Azərbaycan, Rus və ingilis dillərinin materiallarından geniş istifadə etmişdir. Sintaktik təlimdə cümlənin alt və üst strukturu müəyyən mənada araşdırma obyekti kimi götürülmüşdür, lakin bununla belə, N. Xomskinin dil təliminin məziyyətləri də araşdırılmışdır. Bunu nəzərə alaraq deyə bilərik ki, aparılan tədqiqat işinin elmi yeniliyi və praktiki əhəmiyyəti ondadır ki, Azərbaycan dilçiliyində ilk dəfə olaraq cümlənin alt qat strukturu və alt qatda ambiguity (ikimənalılıq) və onun müəyyənləşməsi kriteriyaları və dilin mənimsənilməsində alt və üst qatların qarşılıqlı əlaqəsi tədqiq olunmuşdur.

**AÇAR SÖZLƏR: Noam Xomski, alt qat strukturu, alt qatda ambigutiy**

## GİRİŞ

XX əsr dilçilik nəzəriyyəsinin ən görkəmli simalarından biri də Noam Xomskidir. Onun dilçilik elminə gətirdiyi unikal yeniliklərlə məşhurlaşmış və hətta müasir dilçiliyin atası adlandırılmışdır. N. Xomski həm də böyük səs-küyə səbəb olmuş Transformasional Törəmə (Generativ) Qrammatika (TGG) nəzəriyyəsi ilə məşhurdur. Bu nəzəriyyədə o, Universal Qrammatika (UG) adlandırdığı dilin kortəbii biliklərindən istifadə etməklə cümlələri yaradan əqli bacarığı xüsusi olaraq vurğulayır. N. Xomski yazırdı ki, "Transformasional Generativ Qrammatika (TGG) söyləyənin əslində hansı biliyə malik olmasına işarə etməyə çalışır" [4, s. 247].

N. Xomskinin sintaksis haqqında erkən əsərlərinin konseptual əsasları filosoflar arasında həddən artıq böyük nüfuza malik idi. Onun analitik fəlsəfədə alt və üst qatları fərqləndirməsi, Rasselin cümlənin xarici görünüşü çox zaman onun əsl strukturunu maskalayır şəklindəki təsvirlər nəzəriyyəsinə qayıdaraq, belə görünür ki, ənənə ilə yaxşıca qaynayıb qarışmışdır. "Sintaksis nəzəriyyəsinin aspektləri" əsərində göstərildiyi kimi, generativ qrammatika iki səviyyəyə bölünür: alt qat və üst qat. Beləki, qrammatikanın sintaktik komponenti hər bir cümlə üçün alt strukturunu göstərməlidir ki, bu onun semantik şərhini müəyyən edərək, üst strukturu yəni, onun fonetik şərhini ifadə etsin. Birinci semantik komponentlə, ikinci – fonoloji komponentlə şərh olunur. Ehtimal etmək olardı ki, alt və üst strukturlar həmişə bərabər olacaqlar. N. Xomskinin təklif etdiyi törəmə modeli çərçivəsində cümlələrin alt və üst strukturuna dair konseptual bir yanaşma tətbiq olunur [6, s. 270]. O, həmçinin qeyd edir ki, "üst quruluş birbaşa eşitdiyimiz və oxuduqda qəbul etdiyimiz strukturdur. Alt struktur isə söyləmin mənası ilə bağlıdır. Eyni zamanda üst və alt struktura malik olan cümlələr də var. Bundan başqa üst quruluşdan ibarət iki alt semantik strukturlu (yəni semantik şərhin iki variantlarından ibarət) ifadələr də mövcuddur. Eyni zamanda, alt struktur cümlənin mənasını təşkil edir və üst struktur bu mənanın səs və ya qrafik tərzidir" [5, s. 450].

Təqdim edilən tədqiqat işinin əsas məqsəd və vəzifələrindən biri də dilçiliyin terminoloji repertuarında "alt və üst qat strukturları" anlayışının yaranması və ilk dəfə elmə gətirən alimi tanıtmaqdır. Beləki, "alt və üst qat strukturları" anlayışı dilçiliyin terminoloji repertuarında 50-ci illərin sonunda yaranmışdır. Rus qrammatisti professor L.S. Barxudarova görə, "alt və üst qat anlayışları ilə bağlı olan "daxili" və "xarici" qrammatika anlayışı ilk dəfə elmə Ç. Hokket tərəfindən

1958-ci ildə gətirilmişdir [2, s. 15-16]. Transformasional qrammatikada üst qat strukturu cümlənin xarici forması adlandırılır. Alt qat strukturundan fərqli olaraq (cümlənin mücərrəd təmsil olunması), üst qat strukturu danışıla bilən və eşidilən cümləyə uyğun gəlir.

Yeni terminologiyanı istifadə edərək biz müəyyən edilmiş fərqləri cümlənin "alt strukturu" və "üst strukturu" arasında fərqlər kimi formalaşdıra bilərik. Birincisi cümlənin semantik şərhlənməsini təyin edən mücərrəd baza strukturudur, ikincisi isə onun fonetik şərhlənməsini müəyyənləşdirən və həqiqi fikrin fiziki, qavranılan və ya icra edilən forması ilə bağlı olan vahidlərin üst quruluşudur. "Bu strukturları izah etmək üçün adlı mötərizələrdən (labeled bracketing) istifadə olunur. Bu mötərizələr cümləni elementlər sırasına bölür və bu elementləri müəyyən kateqoriyalara ayırır" [1, s. 18]. Beləliklə, /She loves cats/ (O, pişikləri sevir) cümləsini aşağıdakı kimi təsvir edə bilərik: (S(NP(N cats) NP(VP(V loves) V(NP(N cats)N)NP)VP)S.

Yuxarıda verilən cümlənin iki alt strukturu var. Bu struktur cümlənin nüvə strukturundan fərqlidir. Birinci alt struktur ismi söyləmdir (NP), yəni /she loves/, ikinci alt struktur isə feili söyləmdir (VP), /loves cats/. Və gördüyümüz kimi, verilən cümlə adlı mötərizələrə bölünüb və cümlənin elementləri isə iki əsas kateqoriyaya ayrılıb, yəni ismi söyləm (NP) və feili söyləm (VP).

Törəmə yönümlü alt strukturun konsepsiya növü U.L. Çeyfin "semantik struktur" konsepsiyasına aiddir. Ona görə, "danışan ilk öncə semantik struktur törədir (yaradır) və məhz semantik struktur gələcəkdə (sonra) baş verən hadidsəni müəyyən edir" [3].

Qeyd etməliyik ki, alt strukturun "generativ" və "qeyri-generativ" şərhləri arasında dəqiq sərhəd yoxdur. Bəzi müəlliflər, alt strukturu "mücərrəd struktur sxem" kimi təyin edərək, qeyd edirlər ki, "mücərrəd struktur sxemi" anlamı, "yaranma nümunəsi", "alt cümlə" anlamı ilə eynidir.

## TƏDQİQAT METODU

Tədqiqat işində bütöv sistemli təhlil prinsipi, xüsusilə diskriptiv (təsviri) metod əsas götürülmüşdür. N. Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatlarının nəzəri məsələləri diqqətə alınmış və kompleks şəkildə araşdırılmışdır.

## NƏTİCƏ

Cümlələrin nə üçün çoxmənalı olmamasının səbəbi odur ki, feilin ardınca gələn elementlər təyinedici sinifə – ya sifətə, ya da zərfə aiddir. Sintaktik çoxmənalılıq cümlələrin birdən çox formada məqsədəuyğun olaraq izah edilə bilən və ya birdən daha çox mənanı ifadə etmək üçün məqsədəuyğun olaraq izah edilən xüsusiyyətidir. İki nitq hissəsinə və ya omonimlərə malik olan bir söz çoxmənalılığa malik ola və yaxud olmaya bilər. Sintaktik çoxmənalılıq tək-tək sözlərin bir neçə fərqli mənalarından deyil, cümlənin sözləri və budaq cümlələri arasındakı əlaqədən və onunla ifadə edilən cümlə strukturundan dolayı yaranır. Oxucunun birdən daha çox mümkün struktura malik eyni cümləni məqsədəuyğun şəkildə izah etdiyi zaman mətn "çoxmənalıdır" və "sintaktik çoxmənalılıq" tərifinə uyğundur.

Sintaktik çoxmənalılıq "semantic" çoxmənalılıq ilə qarşılaşdırıla bilər. Birinci bütöv cümlənin əsas strukturunun aşkar edilməsini, sonuncu isə cümlə daxilindəki ayrı-ayrı sözlərin təyin edilməsi üçün çoxsaylı üsulları təsvir edir.

Aparılan tədqiqat işindən belə bir nəticəyə gəlirik ki, ikimənalılıq nəinki cümlənin alt qatında, həmçinin üst qatında da mövcuddur. Alt qatda ikimənalılığın əsas müəyyənləşmə kriteriyalarına söz, söyləm və ya cümlənin birdən çox məna daşımasıdır. Gətirdiyimiz çoxsaylı misallar sübut etdi ki, bir söz və ya hətta cümlə bir neçə leksik mənaya malik ola bilər və bu da dil daşıyıcısı üçün çətinlik yarada bilər. Əsl dil daşıyıcısı üçün, birmənalı olan cümlə və ya söyləm adi dili mənimsəyən üçün çətinlik yarada bilər. Bunun üçün dili mənimsəyən şəxs həm alt qatın, həm də üst qatın qarşılıqlı əlaqəsini qurmağı bacarmalıdır.

### ƏDƏBİYYAT SİYAHISI


1. Veysəlova A.N. Noam Xomskinin dil nəzəriyyəsinin əsasları: avtoref. f.e.f.d. Bakı: 2009, s. 18
2. Вопросы языкознания. Москва: издательство «Наука», 1976, с. 176
3. Шлегель Ф. История древней и новой литературы // Шлегель Ф. Эстетика. Философия. Критика. М.: Искусство, 1983. (Т. 2. Aarsleff 1964 — Leibniz and Locke on Language // American Philosophical Quarterly, 1964. Vol. 1. №3. p. 1-24)
4. Chomsky N. Aspects of the Theory of Syntax. Cambridge, Massachusetts: The M.I.T. Press Massachusetts Institute of Technology. 1965, p. 247
5. Chomsky N. The Science of Language. Cambridge: Cambridge University Press, 2012, p. 450

6. Cook V. J., Newson M. Chomsky's Universal Grammar: An Introduction (2nd edition), Oxford: Blackwell Publishers, 1996, p. 270
7. Richard Nordquist, Surface Sturucture (Generative Grammar), https://www.thoughtco.com/surface-structure-transformational-grammar-1692009 (**online məqalə**)
8. Richard Nordquist, Transformational Grammar (TG) Definition and Examples, https://www.thoughtco.com/transformational-grammar-1692557 (**online məqalə**)


# DILÇILIKDƏ "DIL KIMLIYI" ANLAYIŞININ NƏZƏRI-KONSEPTUAL ƏSASLARI


**BƏNÖVŞƏ MƏMMƏDOVA**
Azərbaycan Dillər Universiteti
Tərcümə fakültəsi
*benovshem.m@gmail.com*
BAKI, AZƏRBAYCAN



**XÜLASƏ**

Məruzədə müasir dilçilik elminin ən aktual və dinamik inkişaf edən sahələrindən olan koqnitiv dilçiliyin maraq dairəsinə daxil olan və mahiyyət etibarilə multisiplinar səciyyə daşıyan yeni linqvistik konsepsiyanın nəzəri əsaslarının müəyyənləşdirilməsi hədəf alınır. Dil kimliyi problemi psixologiya, sosiologiya, kultulogiya, məntiq elmlərilə əlaqəli olduğundan geniş spektrli problemlemlərin təhlil həllini təklif edə bilir ki, bu da həmin konsepsiyanın nəzəri əsaslarının öyrənilməsinin aktuallığını əhəmiyyətli dərəcədə əsaslandırır. Bilavasitə tədqiqat sahəmizi təşkil edən müasir Azərbaycan və ingilisdilli qadın yazarların dil kimliyinin müqayisəli təhlil məqamına gəlincə, burada gender problemlərinin də cəlb olunması, həmin araşdırma sahəsinin aktuallığını daha da artırmış olur. Belə ki, istər Azərbaycan, istərsə də Qərb toplumları üçün son dövrlər xüsusi aktuallıq qazanmış gender assimmetriyası ilə mübarizə məsələlərinin ön plana alınması həmin assimetriyanın dildə hansı səviyyədə və hansı formatda əks olunduğunu müəyyənləşdirmək zərurəti yaradır. Tədqiqatın elmi yeniliyi Azərbaycan dilçiliyində, ümumiyyətlə "dil kimliyi" probleminin sistemli təhlilinin yer almaması ilə şərtlənir. Təqdim edilən məruzə təkcə Azərbaycan dilçiliyi üçün deyil, ingilisdilli araşdırmalar üçün də qadın yazarların dil kimliyinin müqayisəli tədqiqini hədəf alan ilk araşdırma sayıla bilər. Tədqiqatın praktik əhəmiyyətinə gəlincə, onun elmi nəticələri gender dilçiliyini hədəf alan, psixolinqvistikanın müxtəlif sahələrinə həsr olunan seçmə fənnlərin tədrisində istifadə edilə bilər. Nəticəyə gəlincə, tədqiqat əsnasında aparılan araşdırmalar istər Azərbaycan, istəsə də qadın yazarların dil kimliyinin formalaşmasında onların sosial (o cümlədən, irqi, dini qruplara aidlik baxımından) kimliklərinin, psixoemossional özəlliklərinin, aldıqları təhsil və intellektual səviyyələrinin (o cümlədən, emossional intellektlərinin) həlledici rol oynadığını söyləməyə əsas verir.


**AÇAR SÖZLƏR: Açar söz-1: "dil kimliyi", açar söz-2: koqnitiv dilçilik, açar söz:-3 müasir Azərbaycan və ingilisdilli qadın yazarlar**

**GIRIŞ**

**Tədqiqatın məqsəd və vəzifələri**: Aparılan araşdırmanın əsas məqsədi Azərbaycan və ingilisdilli qadın yazarların bədii əsərlərinin təqdim etdiyi materiallara istinadən dil kimliyi anlayışının nəzəri konseptual əsaslarının müəyyənləşdirməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi vacibliyindən çıxış etmişik: 1) dil kimliyi anlayışının koqnitiv dilçilik kontekstində dəyərləndirməsini aparmaq; 2) yaradıcı şəxsin dil kimliyini formalaşdıran faktorları müəyyənləşdirmək; 3) Azərbaycan və ingilisdilli qadın yazarların dil kimliyinin fərqli və ortaq cəhətlərini formalaşdıran cəhətləri təsbit etmək.

**Tədqiqatın aktuallığı**: "Dil kimliyi" bilavasitə linqvistikanın tədqiqat sahəsini təşkil etsə də, burada psixolinqvistik, sosiolinqvistik, etnolinqvistik xarakterli təhlil istiqamətlərinin simbiozunun labüdlüyü, ümumilikdə, dilçilik elminin konqlamerativ əsaslı inkişafı baxımını da təşviq edir ki, bu da bir daha mövzunun araşdırılmasının aktuallığını şərtləndirir.Söhbət qələm sahiblərinin və ya siyasi xadimin dil kimliyindən getdikdə isə burada artıq ədəbiyyatla, politologiya ilə əlaqəli multidisplinar-